*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 409-417*

https://doi.org/10.62837/2026.3.409

**AFƏT QƏDİROVA**
filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Milli Azərbaycan
Ədəbiyyatı Muzeyinin böyük elmi işçisi
afetkadirova@gmail.com

# "KİRPİ" JURNALI MİLLİ MƏTBUAT HADİSƏSİ KİMİ

**Açar sözlər:** "Kirpi" jurnalı, sovet mətbuatı, satirik nəşr, ideoloji təsir, Azərbaycan mətbuat tarixi
**Ключевые слова:** журнал «Кирпи», советская пресса, сатирическое издание, идеологическое влияние, история азербайджанской прессы
**Keywords:** "Kirpi" journal, Soviet press, satirical publication, ideological influence, history of the Azerbaijani press

"Kirpi" jurnalının nəşrə başladığı dövr Azərbaycan ictimai-siyasi mühitində ideoloji ziddiyyətlərin kəskinləşdiyi mərhələ kimi səciyyələndirilir və jurnalın fəaliyyət strategiyası və ideya istiqaməti də belə bir kontekstdə müəyyənləşir.

Bu mətbu orqan yarandığı gündən özünü "Molla Nəsrəddin" satirik jurnalının davamçısı kimi təqdim edərək mövcud cəmiyyətin ictimai-siyasi, sosial-məişət, əxlaqi-mənəvi problemlərinin tənqidi təhlilini qarşısına məqsəd qoymuşdur. Lakin bu məqsədlərin reallaşdırılması sovet ideoloji sisteminin sərt senzura mexanizmləri və siyasi nəzarəti çərçivəsində həyata keçirildiyindən, nəticə etibarilə, jurnalın materiallarında əks olunan problemlərin şərhində müəyyən hallarda ideoloji interpretasiya üstünlük təşkil etmiş, obyektiv tənqid imkanları məhdudlaşdırılmışdır.

XX əsrin 50-ci illərində SSRİ məkanında partiyanın ali orqanı olan qurultayların qərarları ictimai həyatın bütün sahələrinə, o cümlədən mətbuat və ədəbi-mədəni proseslərə istiqamət verən normativ baza funksiyasını yerinə yetirirdi. 1952-1956-cı illərdə, başqa sözlə desək, Əvəz Sadığın jurnalın redaktoru olduğu dövrdə, Sovet İttifaqı Kommunist Partiyasının iki (XIX qurultay 5-14 oktyabr 1952; XX qurultay 14-25 fevral) , Azərbaycan Kommunist Partiyasının üç qurultayı (XIX qurultay 23-25 sentyabr 1952; XX qurultay 12-16 fevral 1954; XXI qurultay 25-27 yanvar 1956) keçirilmişdir. Bu fakt göstərir ki, "Kirpi" jurnalının fəaliyyət mühiti ciddi siyasi koordinasiya və ideoloji çərçivə daxilində formalaşmışdır. Belə bir şəraitdə jurnalın özünüifadə imkanları və tənqidi diskursun sərhədləri mövcud siyasi sistem tərəfindən müəyyənləşdirilirdi ki, bu da satiranın funksional mahiyyətinə bilavasitə təsir göstərirdi.

Azərbaycan Kommunist bolşeviklər Partiyasının XIX qurultayında deyilirdi: "Partiya təşkilatları kütlələrlə öz əlaqəsini daha da möhkəmləndirməli,

özünütənqidi və aşağıdan tənqidi genişləndirməli, bütün zəhmətkeşlərin qüvvəsini işimizdə olan nöqsan və kəsirləri aradan qaldırmaq üçün səfəbərliyə almalı, quruculuğumuzun bütün sahələrində partiyanın və dövlətin mənafeyinin axıra qədər qorunmasını təmin etməlidirlər”.[1]

Uzun illərin tarixi məsafəsindən ötənləri öyrənib, təhlil edib, həmin dövrün siyasi-ictimai gerçəkliklərini nəzərə almadan qəti fikir söyləmək, bu və ya digər məsələlərə birmənalı mövqe bildirmək çətindir. Yəni bəhs etdiyimiz dövrün siyasi ovqatı inzibati göstərişləri və nəzarət mexanizminin kifayət qədər sərt şərtləri daxilində fəaliyyət göstərmək məcburiyyətində olan istənilən mətbuat, yaxud ədəbi, bədii yaradıcılıq sahələri hakim ideologiyanın çərçivə imkanları ilə hesablaşmalı idi. Odur ki, sözügedən “Kirpi” jurnalı da, təbii olaraq, mövcud ideologiyanın ruporu kimi fəaliyyətə başlamışdı və onun üçün müəyyən edilmiş xətt üzrə addımlamaq tapşırığını yerinə yetirirdi. Amma bu da var ki, imkan tapdıqca, jurnalın əməkdaşları müxtəlif mövzuları işıqlandırmaq təşəbbüslərində bəzən öz vətəndaş mövqelərini, milli təəssübkeşlik meyillərini ifadə edə bilirdilər.

“Kirpi” yarandığı gündən etibarən onun fəaliyyət istiqamətləri və ideya xətti redaksiya heyətinin mövqeyi ilə sıx bağlı olmuşdur. Vaxtilə jurnalın məsul katibi olmuş, bu mətbu orqanın inkişaf mərhələlərində mühüm rol oynamış, Əvəz Sadığın vəfatından sonra redaktorluq vəzifəsini icra etmiş Qulam Məmmədli jurnalın 300-cü nömrəsinin çapdan çıxması münasibətilə yazdığı “301-ci” adlı məqaləsində nəşrin 12 il yarımlıq fəaliyyət dövrünə nəzər salır və “yüz əlli ay ərzində keçdiyi qısa yol”u retrospektiv baxışla təhlil edir.

Müəllif həmin məqalədə “Molla Nəsrəddin” jurnalının nəşrinin dayandırılmasından təxminən iyirmi il sonra Azərbaycan satirik mətbuat ənənəsinin davamı kimi “Kirpi” jurnalının yaradılması qərarının qəbul edilməsini tarixi kontekst daxilində qiymətləndirir. O, jurnalın təsis olunması prosesində ad seçimi, redaksiya heyətinin formalaşdırılması və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi kimi məsələlərə diqqət yetirir.

Müəllifə görə ideya baxımından və simvolik cəhətdən əsaslandırılan bu ad həm milli satirik ənənəyə istinad edir, həm də cəmiyyətə yönəlmiş tənqidi diskursun konseptual mahiyyətini ifadə edir. Qulam Məmmədlinin jurnalın yaranma tarixi haqqındakı qeydləri “Kirpi”nin yaranma zərurətini və onun varislik xətti üzərində qurulduğunu göstərən mənbə kimi dəyərləndirilə bilər: “Birinci söhbət jurnalın adından başlandı:

¬ Təzə uşağa nə ad qoyaq?

Biri dedi: “Molla Nəsrəddin”.

Ancaq digəri buna etiraz elədi: “Mirzə Cəlilsiz “Molla Nəsrəddin” ola bilərmi?..”

¬ Bəs elə isə nə ad qoyaq?

---

[1] Azərbaycan K(b)P on doqquzuncu qurultayı. “Kommunist” qəzeti №226(9025). 23 sentyabr 1952

Yığışdılar, danışdılar, dağılışdılar. İstədiklərini tapa bilmədilər. Bir də təzədən toplaşdılar: "Arı", "Tikan" ¬ dedilər. "Sancaq", "Əqrəb" ¬ təklif etdilər. "Məngənə", "Mancanaq", "Yaba", "Tələ" kimi çox adlar çəkdilər. Lakin hərəsinə bir səbəb göstərib qəbul etmədilər. Kim isə qəfildən səsləndi:

¬ Kirpi!

¬Nə?

¬ "Kirpi!", "Kirpi!" deyə təklif edən adam sözünü əsaslandırmağa çalışdı: ¬ Kirpi həm tikanlıdır, həm də xeyirli; həm döyüşkəndir, həm də xeyirxah...

...Beləliklə ad məsələsi həll olundu".[2]

"Kirpi" jurnalının yaranma prosesinin canlı şahidlərindən olan müəllif məqaləsində redaktor və redaksiya heyətinin formalaşdırılması ilə bağlı da mühüm məlumatlar təqdim edir. Onun qeydlərindən aydın olur ki, jurnalın redaktorluğu məsələsi geniş müzakirələrdən sonra "məzəli yazıları ilə şöhrət qazanmış" Əvəz Sadığa həvalə edildikdən sonra redaksiya heyətinin tərkibinin məyyənləşdirilməsi səlahiyyəti də ona verilir. Əvəz Sadığın seçimi belə olur: "Süleyman Rüstəm ¬ bu olsun bizim şairimiz, Sabit Rəhman ¬ bu da bizim felyetonçumuz, Süleyman Məlikov ¬ "Molla Nəsrəddin"in keçmiş əməkdaşlarından bir nümunə, Qulam Məmmədli ¬ şikayət işləri üzrə müvəkkil, Kazım Kazımzadə ¬ rəsm-şəkil işləri üzrə mütəxəssis, Rza Şahvələd də jurnalistlərdən bir nümayəndə".[3]

Məqalədə göstərilir ki, jurnalın məsul katibi vəzifəsinə redaksiya üzvlüyünə seçilmiş Sabit Rəhmanın təklifi əsasında Qulam Məmmədli seçilir: "Əvəz yoldaş boyca nisbətən gödək və bədəncə kökdür. Ona bir nəfər uzunboylu, arıq katib lazımdır ki, uzaqdan baxanda həm müvazinət gözlənilmiş olsun, həm də Don Kixotla Sançо Pansoya oxşar məzəli bir mütənasiblik əmələ gəlsin. Buna da bizim aramızda Qulam Məmmədlidən münasib namizəd yoxdur".[4]

Bu fakt redaksiya strukturunun formalaşdırılmasında kollektiv müzakirələrin və ədəbi mühit daxilində yaranmış etimad münasibətlərinin mühüm rol oynadığını göstərir.

Bundan əlavə, sözügedən məqalədə jurnalın vizual identifikasiyası ilə bağlı məsələlər də diqqətə çatdırılır. Buradan belə məlum olur ki, nəşrin üz qabığında istifadə ediləcək kirpi təsvirinin hazırlanması üçün müxtəlif rəssamlara sifariş verilmiş, təqdim olunan eskizlər arasından Nəcəfqulunun çəkdiyi təsvir qəbul edilmişdir. Bu seçim jurnalın estetik konsepsiyasının formalaşdırılmasında bədii yanaşmanın əsas meyar kimi qəbul edildiyini nümayiş etdirir.

"Kirpi" jurnalının 100-cü nömrəsinin çapdan çıxması münasibətilə Əvəz Sadığın yazdığı məqalədə onun üz qabığındakı ictimai rəydə təqdir edilən rəssam Nəcəfqulunun çəkdiyi rəsm belə təsvir olunur: "Jurnalın üstündə fəhlə paltarı geyinmiş

---

[2] Q.Məmmədli 301-ci. "Kirpi" jurnalı, yanvar, 1965, №1,

[3] Yenə orada

[4] Yenə orada

bir Kirpi, yalançı gözlüyünün dalından iti gözlərilə oxucuların üzünə baxırdı. Çiynində qələmi, yanında fotoaparatı olduğu halda, Bakıda, mədənlərin arasında addımlayırdı. Kirpinin əlində "Krokodil" jurnalı vardı". [5]

Bu təsvirin zəngin rəmzi mənası "Kirpi"nin hər nəşrini səbirsizliklə gözləyən oxucuları üçün kifayət qədər anlaşıqlı idi.

"Kirpi"nin ilk nömrəsində SSRİ məkanında çıxan "Krokodil" ("Timsah"; Moskva), "Muştum"("Yumruq"; Daşkənd), "Çayan" ("Əqrəb", Kazan), "Nianki"("Timsah", Tbilisi) satirik jurnallarından təbrik teleqramları da yer almışdır. Bu teleqramlar nəşrin fəaliyyətə başlamasına göstərilən ədəbi-mətbu dəstəyi və sovet satirik sistemi daxilində formalaşan institusional əlaqələri əks etdirir.

Eləcə də "Krokodil" jurnalının 18-ci nömrəsində kirpinin timsaha əl verib görüşməsi təsvir olunan rəsmlə yanaşı belə bir məlumat da yer alır: "Bakıda Azərbaycan dilində yeni satirik jurnal olan "Kirpi" nəşr olunmağa başlayıb. Doğum günün mübarək!"[6]

Belə materialların ilk nömrədə yer alması jurnalın təkcə regional deyil, həm də ümumittifaq mətbuat mühitinə inteqrasiya mövqeyini göstərmiş, eyni zamanda satirik nəşrlər arasında kommunikativ və ideya mübadiləsinin mövcudluğunu nümayiş etdirmişdir.

"Kirpi" jurnalının ilk nömrəsinin işıq üzü görməsindən təxminən iki ay sonra Azərbaycan Kommunist bolşeviklər Partiyasının XIX qurultayında irəli sürülən "özünütənqidi və aşağıdan tənqidi gücləndirmək" vəzifəsi satirik mətbuat üçün əsas ideoloji istiqamətlərdən biri kimi müəyyənləşdirilmişdir. Qurultayın qəbul etdiyi bu müddəa praktik baxımdan birbaşa "Kirpi" jurnalının fəaliyyət sahəsinə yönəlmiş, onun ideya funksiyasını və tənqidi missiyasını legitimləşdirən siyasi əsas kimi çıxış etmişdir.

Jurnal məhz partiyanın ali siyasi orqanı tərəfindən müəyyənləşdirilmiş ictimai nəzarət və tənqid mexanizmlərinin mətbuat müstəvisində həyata keçirilməsi zərurətindən formalaşmışdır. Bu baxımdan "Kirpi" cəmiyyətin iqtisadi, sosial, mədəni və mənəvi həyatındakı nöqsanların satirik təhlili vasitəsilə qurultay qərarlarında nəzərdə tutulan özünütənqid prinsipinin mətbuat səviyyəsində reallaşdırılmasına xidmət etmişdir.

Həmin dövrdə partiya tapşırıqlarının əsas prioritet kimi yerinə yetirilməsinin mütləqliyini Əvəz Sadığın Azərbaycan Dövlət Arxiv İdarəsinin fondunda qorunub saxlanılan "Kirpi" jurnalının fəaliyyəti haqqında hesabat xarakterli çıxışında da görmək olur: "Kirpi" jurnalı 1952-ci ilin iyul ayından nəşrə başlamışdır. Jurnal bu müddətdə partiya və hökumətin sovet mətbuatı, xüsusilə satirik jurnalların qarşısında qoyduqları vəzifələri yerinə yetirməyə çalışmışdır". [7]

[5] Ə.Sadıq. 100 nömrə. "Kirpi" jurnalı, 1956, avqust, №16(100)
[6] "Krokodil" jurnalı №18 (1308), 30 iyun 1952, s.2
[7] Ə.Sadıq. "Kirpi" jurnalı haqqında çıxışlarının mətnləri. Fond № 465, siyahı 1, saxlama vahidi 119

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 409-417*

Həmin dövrdə siyasi repressiya dalğasının təsiri altında cəmiyyətdə genişmiqyaslı təhlükə və nəzarət mühiti formalaşmışdı. Bu şərait ictimai şüurda ehtiyatlılıq və özünüsenzura meyillərini gücləndirir, fərdi və kollektiv fəaliyyət sahələrinə birbaşa təsir göstərirdi. Nəticə etibarilə, yaradıcılıq prosesləri müəyyən ideoloji məhdudiyyətlər və instutisional nəzarət mexanizmləri ilə əhatələnərək sərbəst ifadə imkanlarından məhrum edilirdi. Məhz belə bir kontekstdə azad düşüncə sahiblərinə qarşı sistemli şəkildə həyata keçirilən qarayaxma kampaniyaları və ideoloji təzyiq mexanizmləri onların ictimai və yaradıcılıq fəaliyyətini məhdudlaşdıran əsas vasitələrdən biri kimi diqqət çəkir. Bu baxımdan Əvəz Sadığın Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində qorunub saxlanılan Azərbaycan Sovet Yazıçılar İttifaqında çıxışları da dövrün mövcud siyasi-ictimai mənzərəsini açıq ifadə edir: "...Rəfilinin bütün elmi və ədəbi yaradıcılığı səhvlərlə doludur. ... Ədəbi, elmi təşkilatlarımız onun buraxdığı səhvləri müzakirə etməklə məşğul olurlar, onun səhvləri haqqında məqalələr yazılır, qərarlar çıxarılır. Lakin bunlar yenə də Rəfiliyə təsir etmir. ... O öz ziyançılıq və düşmənlik fəaliyyətinin izini itirmək üçün tez-tez buraxdığı səhvlərin xasiyyətini dəyişir. Məsələn, bu il burjua millətçisi kimi çıxış etmişsə, gələn il kosmopolit səhvi buraxır, bu il Azərbaycan xalqının mədəniyyətini inkar edib, xalqımızın iftixarı olan yazıçıları ləkələyirsə, gələn il şamilizmi müdafiə edir, bir il "vahid akt"ın təbliğatçısı olursa, bir az sonra futurizm, urbanizm, impressionizm, ekspressionizm, xülasə Avropa və Amerika ideoloji zibilxanasında rastına gələn hər cür "izm"ləri gətirib ədəbiyyata doldurur. ...Yoldaşlar, Mir Cəfər Bağırov iki il bundan əvvəl müridizmi ifşa edən ətraflı məruzəsində Azərbaycanın Rusiyaya qoşulmasının böyük siyasi və müsbət əhəmiyyətini qeyd edərək, şamil hərəkatının mürtəce mahiyyətini göstərmişdir. ... O, Şamil hərəkatını azadlıq hərəkatı, inqilabi hərəkat adlandırır".[8]

Nəşrə başladığı dövrdən etibarən fəaliyyətini ictimai-siyasi reallıqlar və dövrün tələbləri kontekstində qurduğundan nəşrin səhifələrində cəmiyyət həyatının aktual məsələlərinə xüsusi yer ayrılırdı. Bu səbəbdən jurnalın redaktorunun yuxarıda səslənən fikirlərinə "Kirpi" də qoşulmuş və jurnalın 15 noyabr 1952-ci il tarixli nömrəsində professor Mikayıl Rəfilinin rəssam Nəcəfqulu tərəfindən çəkilmiş karikaturası yerləşdirilmişdi. Həmin karikaturada M.Rəfili qoltuğunda xoruz təsvir edilmişdir. Arxa skamyada Mirzə Cəlil və Sabir əyləşmişlər. ("Mirzə Cəlil ¬ Rəfili bu xoruzu haradan alıb? Sabir ¬ Almayıb, yığıncaqda veriblər qoltuğuna..."[9] Şəklə belə bir şərh verilmişdir: "Azərbaycan alimləri və yazıçıları professor Mikayıl Rəfilinin "İnqilab və mədəniyyət" jurnalındakı Azərbaycan klassiklərinə böhtan atan məqaləsini müza-

---

[8] Ə. Sadıq. Azərbaycan ədəbiyyatı haqqında Azərbaycan Sovet Yazıçılar İttifaqında çıxışlarının mətnləri. 1940-cı illər. Fond№ 465, siyahı 1, saxlama vahidi 116, vərəqlərin sayı 133 (s.3-4)
[9] "Kirpi" jurnalı. 15 noyabr, 1952-ci il, № 9, s.3

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 409-417*

kirə edərək pisləmişlər. Rəfili Nizami adına Dil və Ədəbiyyat İnstuitutundan çıxarılmışdır”.[10]

Məlumdur ki, 1953-cü ildə İosif Stalinin vəfatından, eyni zamanda Azərbaycanda Mir Cəfər Bağırovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra sovet siyasi sistemində müəyyən transformasiya prosesləri başlamışdır. Sovet İttifaqı Kommunist Partiyasının 1956-cı il 14-25 fevral tarixlərində keçirilən XX qurultayının son günündə Sov.İKP-nın birinci katibi seçilmiş N.S.Xruşşovun qapalı iclasdakı “gizli məruzəsin”də Stalin dövrünün siyasi praktikası təhlil edilmiş, bu mərhələdə baş vermiş repressiyalar və hüquq pozuntuları qismən də olsa tənqid obyektinə çevrilmişdir.

1956-cı il iyun ayının 30-da isə Sov.İKP MK-nın “Şəxsiyyətə pərəstiş və onun nəticələrinin aradan qaldırılmasına dair” qərarı dərc olunmuş və bu sənəd siyasi sistem daxilində yeni ideoloji kursun rəsmiləşdirilməsinə xidmət etmişdir.

Həmin qərardan sonra SSRİ miqyasında siyasi reallıqlar fərqli məcraya yönəlmiş, repressiya qurbanlarına bəraət verilməsi prosesi başlanmışdır. Bu dəyişikliklər ictimai-siyasi mühitdə tənqidin mövzusunu və hədəflərini əhəmiyyətli dərəcədə dəyişmişdir.

Təsadüfi deyil ki, XX qurultayın qərarları repressiyalara məruz qalmış müxtəlif peşə, elm və ədəbiyyat nümayəndələrinin adlarının cəmiyyət içərisində bərpa olunmasına şərait yaratmışdır. Artıq əvvəlki dövrdə mövcud olan ideoloji qadağalar zəiflədilmiş, repressiya olunan şəxslərin adlarının açıq şəkildə çəkilməsi və onların fəaliyyətinin qiymətləndirilməsi mümkün olmuşdu.

Bu kontekstdə Əvəz Sadığın Azərbaycan Kommunist Partiyasının XX qurultayındakı çıxışı xüsusi əhəmiyyət kəsb edir və həmin dövrdə siyasi-ideoloji dəyişikliklərin mətbuat və ictimai diskurs üzərindəki təsirini əks etdirən mühüm mənbə kimi qiymətləndirilə bilər: “Burada Bağırov haqqında çox danışıldı. Bu yaxşıdır və bunu demək lazımdır. Onun əlləri bir çox günahsız insanların qanına bulaşıb. O, Heydər Hüseynovun faciəli aqibətinin baiskarıdır. Sevmədiyi insanlar üçün o, elə dözülməz şərait yaradırdı ki, adamlar onunla üz-üzə gəlməkdən çəkinirdilər. O, insanlara asanlıqla “türk casusu”, “ağqvardiyaçı”, müsavatçı” damğası vura bilərdi. Birinci katibin dilindən belə ittihamları eşidənlər bu insanlardan uzaq gəzməyə məcbur qalırdılar. İttiham olunanların isə həyatlarına son verməkdən başqa çarələri qalmırdı. O, Ü. Hacıbəyov, S.Vurğun kimi ən yaxşıların sırasında olanları təqib edirdi.

Hər kəsin yadındadır ki, ziyalıların böyük auditoriya qarşısında keçirdiyi toplantıda M.C.Bağırov ən yaxşı ədəbiyyatşünas alimlərimizdən olan M.Arifi “türk casusu” adlandırmışdı. M.Arif bu ləkəni üstündən götürmək üçün üç il əziyyət çəkdi. Bağırov ən kiçik bir tənqidə, ən kiçik bir işarəyə, hətta tənqid qoxusuna görə insanları təqib edirdi. Ona zidd gedənlərlə amansız davranırdı. Yoldaşların yəqin ki, yadındadır, “Kirpi” jurnalında Səməd Vurğunun “Belələri də var” şeiri dərc

[10] Yenə orada

olunmuşdu. Burada o, qorxaqlıqla hiyləgərlik edənləri, sakitlik donu altında gizlənərək insanların məhvinə səbəb olan satqın insanları satirik dillə məsxərəyə qoymuşdu. Mən əvvəlcədən Səməd Vurğunu xəbərdar etmişdim ki, bu şeirə görə başımız bəlaya düşəcək. Həqiqətən şeirdə ona eyham olunduğunu anlayan Bağırov "Kirpi" jurnalını bağlamaq və bizi məhv etməklə hədələdi".[11]

Qeyd edək ki, Səməd Vurğunun sözügedən şeiri "Kirpi" jurnalının 15-ci sayında (1953-cü il 15 fevral tarixli 3-cü nömrəsində ) çap olunmuşdur. 9 bənddən ibarət olan bu poeziya nümunəsini nəzərdən keçirdikdə saysız-hesabsız repressiyalara səbəb olan mövcud quruluşun "asta-asta" işləyən şər və böhtan üzərində qurulmuş kibrli və cinayətkar idarəetmə sisteminə eyham və işarələri görməmək mümkün deyil. Məhz bu səbəbdən jurnalın o zamankı baş redaktorunun da etiraf etdiyi kimi müəllifin seçdiyi hədəf öz ünvanına çatmış və gözlənilən əks reaksiya ilə nəticələnmişdir.

Beləliklə, "Kirpi" jurnalı XX əsrin II yarısında Azərbaycan mətbuat tarixində sovet ideoloji çərçivələri daxilində fəaliyyət göstərməsinə baxmayaraq, dövrün sosial, siyasi və mənəvi ziddiyyətlərini tənqidi diskurs vasitəsilə aktuallaşdırmış və ictimai şüurun formalaşmasına müəyyən təsir göstərmişdir.

Nəticə etibarilə, "Kirpi" həmin mərhələdə milli satira ənənəsinin davamlılığını təmin edən və tənqidi funksiyanı konkret tarixi şəraitdə reallaşdıran əhəmiyyətli mətbuat hadisəsi kimi qiymətləndirilir.

## Ədəbiyyat:

1. "Kirpi" jurnalı. 15 noyabr, 1952-ci il, № 9
2. "Kommunist" qəzeti №226(9025). 23 sentyabr 1952
3. "Krokodil" jurnalı №18 (1308), 30 iyun 1952
4. Məmmədli Q. 301-ci. "Kirpi" jurnalı, yanvar, 1965, №1
5. Sadıq Ə. 100 nömrə. "Kirpi" jurnalı, 1956, avqust, №16(100)
6. Sadıq Ə. "Kirpi" jurnalı haqqında çıxışlarının mətnləri. Fond № 465, siyahı 1, saxlama vahidi 119
7. Sadıq Ə. Azərbaycan ədəbiyyatı haqqında Azərbaycan Sovet Yazıçılar İttifaqında çıxışlarının mətnləri. 1940-cı illər. Fond№ 465, siyahı 1, saxlama vahidi 116, vərəqlərin sayı 133
8. Sadıq Ə. Azərbaycan KP MK-nın XX qurultayı və V pleniumunda çıxışlarının mətnləri. Avtoqraf (rus dilində). Fond №465, siyahı 1, saxlama vahidi 118

[11] Ə. Sadıq Azərbaycan KP MK-nın XX qurultayı və V pleniumunda çıxışlarının mətnləri. Avtoqraf (rus dilində). Fond №465, siyahı 1, saxlama vahidi 118

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 409-417*

**AFƏT QƏDIROVA**

**"KIRPI" JURNALI MILLI MƏTBUAT HADISƏSI KIMI**

**XÜLASƏ**

Məqalə Azərbaycan Sovet dövrü mətbuat tarixində xüsusi yer tutan "Kirpi" satirik jurnalının yaranma tarixi və qısa zaman içərisində cəmiyyət həyatına nüfuz edərək geniş oxucu auditoriyası qazanması məsələlərinin təhlilinə həsr edilmişdir. Tədqiqatda jurnalın formalaşdığı dövrün Sovet sisteminin mürəkkəb siyasi-ideoloji mərhələsinə təsadüf etdiyi xüsusi vurğulanır, həmin dövrdə ideoloji və inzibati təsirlərin ədəbi və publisistik yaradıcılığa göstərdiyi məhdudiyyətlər araşdırılır. Məqalədə SSRİ-yə daxil olan digər respublikalarda da oxşar istiqamətli satirik jurnalların fəaliyyət göstərdiyi və bu nəşrlərin mərkəzləşdirilmiş idarəetmə sistemi təəssüratı yaratdığı işarələnir.

Jurnalın cəmiyyət arasında nüfuz qazanması onun peşəkar redaksiya kollektivi, baş redaktor Ə.Sadığın səmərəli fəaliyyəti, yüksək peşəkarlığı, həmçinin davamlı məzmun və forma axtarışları ilə izah olunur və bu müddəalar konkret tarixi faktlarla əsaslandırılır.

**АФЕТ ГАДИРОВА**

**ЖУРНАЛ «КИРПИ» КАК ЯВЛЕНИЕ НАЦИОНАЛЬНОЙ ПРЕССЫ**

**АННОТАЦИЯ**

Статья посвящена анализу истории создания журнала «Кирпи», его развития и активного влияния на общественную жизнь, что обеспечило ему широкую аудиторию в период советской эпохи в Азербайджане.

В статье отмечается, что журнал функционировал в условиях сложного политико-идеологического периода, когда административные ограничения оказывали воздействие на литературно-публицистическую деятельность. Здесь так же рассматривается деятельность аналогичных сатирических изданий в других союзных республиках СССР, что создавало впечатление централизованной системы управления подобными журналами.

Рост авторитета журнала объясняется профессиональной деятельностью редакционного коллектива, вкладом главного редактора А.Садыга, а также постоянным поиском новых форм и содержательного совершенствования издания.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 409-417*

**AFET GADIROVA**

**“KIRPI”JOURNAL AS A NATIONAL PRESS EVENT**

**SUMMARY**

The article is devoted to the analysis of the history of “Kirpi” satirical journal establishment, that holds a special place in the history of the press of Azerbaijan Soviet period, and the issues of its penetration into the society life and gaining a wide readership in a short time. The study thesis emphasizes that the period in which the journal was formed coincided with the complex political-ideological stage of the Soviet system, and the limitations that ideological and administrative influences had on literary and journalistic creativity during that period are studied. The article notes that satirical journals with similar orientations also operated in other republics that were part of the USSR, and that these publications created the impression of a centralized management system.

The journal's gaining influence among society is explained by the effective activity of its professional editorial team, editor-in-chief A.Sadiq, his high professionalism, as well as the constant search for content and form, and these provisions are substantiated by specific historical facts.

**Rəyçi: fil.e.d., professor K.H.Allahyarov tərəfindən çapa tövsiyə olunmuşdur.**